*Azərbaycan Respublikası*

***Təhsil Nazirliyi***
***BAKI DÖVLƏT***
***UNİVERSİTETİ***
**ƏMR**
12.12.11 R-127

***Bakı şəhəri***

***Məzmunu: 2011/2012-ci tədris ilinin qış imtahan sessiyasının keçirilməsi haqqında***

1. Tədris qrafiklərinə uyğun olaraq bakalavriat və magistratura pillələri üzrə universitetin bütün fakültələrində dərslər 2011-ci il dekabrın 30-da kəsilsin, qış imtahan sessiyası 2012-ci il yanvarın 5-dən 31-dək keçirilsin. İmtahanlar saat $10^{00}$-da başlansın. İmtahanlar bütün fakültələrdə monitorinq formasında aparılsın. Zərurət yarandığı hallarda rektorluğun qərarı əsasında imtahanlar şifahi-dialoq və test formasında aparıla bilər.

Sessiya dövründə bakalavriat (qiyabi) və magistratura (qiyabi və əyani) pillələri üzrə (hüquq fakültəsi istisna olmaqla) dərslər və imtahanlar saat $14^{00}$-da başlansın.

2.Qış imtahan sessiyasında tədris planlarına uyğun keçiriləcək imtahanların siyahısı mövcud əsasnaməyə uyğun olaraq müəyyənləşdirilsin və imtahan cədvəlləri təsdiq olunmuş həmin siyahıya əsasən tərtib edilsin.

2011/2012-ci tədris ilində qış imtahan sessiyası ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnaməyə, eləcə də BDU-da kredit sistemi ilə tədrisin təşkili barədə Əsasnaməyə müvafiq olaraq keçirilsin.

3.Tədris planında nəzərdə tutulmuş fənlər üzrə saatlar jurnalda fənn müəlliminin imzası ilə yekunlaşdıqdan və fakültə dekanlarının ciddi nəzarəti ilə təsdiqləndikdən («imtahan götürülməsinə icazə verilir» sözləri yazılmaqla) sonra imtahan vərəqələri verilsin.

4.Tələbələrin kurs işlərinin müdafiəsi kafedralarda fakültə dekanı tərəfindən təsdiq olunmuş komissiya qarşısında aparılsın və mövcud qaydada sənədləşdirilsin. Tələbə kurs işini müdafiə etmədiyi halda o həmin fəndən imtahana buraxılmasın. Kurs işlərinin mövzularının təkrar olunmasına yol verilməsin.

5. Sessiyanın nəticələrinə görə ayrı-ayrı fənlər üzrə ən aşağı göstəricilər fakültə dekanlıqları və fakültə elmi şuralarında ciddi müzakirə olunsun və nəticəsi həmin fənləri tədris edən müəllimlərə növbəti tədris ilində dərs yükü ayrılan zaman nəzərə alınsın.

6.Sessiyanın sonunadək imtahanlara gəlməyən tələbələr (bakalavriat və magistratura üzrə) 3 gün müddətində dekanlığa onun səbəbi haqqında rəsmi məlumat verməlidirlər. Bu barədə fakültə dekanlıqları tələbələri qabaqcadan məlumatlandırsınlar.

7. Payız semestri ərzində tədris olunan bütün fənlərə ayrılmış ümumi saatların üzürsüz səbəbdən 30 %-dən coxunu buraxan tələbələr keçirilən proqramlara tam yiyələnmədikləri üçün mövcud əsasnaməyə müvafiq olaraq imtahan sessiyasına buraxılmasınlar və onların universitetdən xaric olunmaları haqqında fakültə dekanlıqları tərəfindən müvafiq təqdimatlar verilsin. Eyni zamanda, ayrı-ayrı fənlər üzrə ümumi saatların 30 %-dən çoxunu buraxan tələbələr də həmin fəndən imtahanlara buraxılmasınlar və bu barədə rektorluğa müvafiq məlumat verilsin. Bu məsələ rektorluqda təhlil edildikdən sonra müvafiq qərar verilsin.

8. Zərurət yarandığı hallarda tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektorun təklifi ilə sessiyanın gedişi rektorluqda müzakirə olunsun.

9. Kənar şəxslərin imtahanda iştirakı qadağandır.

10.Tələbələr imtahanlara yalnız tələbə bileti və ya qiymət kitabçası ilə buraxılsınlar.

11. Tədris planlarına uyğun sessiyanı müvəffəqiyyətlə vermiş tələbələrə mövcud qaydada təqaüd verilməsi haqqında təqaüd komissiyasının qərarı fevralın 16-dan gec olmayaraq mühasibatlığa və tədris hissəsinə təqdim olunsun.

### *12. FAKÜLTƏ DEKANLARINA VƏ KAFEDRA MÜDİRLƏRİNƏ TAPŞIRILSIN:*

a) İmtahanların keçirilməsində tədris işləri üzrə prorektorun 09 saylı 14.03.2005-ci il tarixli sərəncamı rəhbər tutulsun.

b) Bütün tədris qruplarında fərdi qaydada görüş keçirsinlər və tələbələrin istək və arzularına diqqətlə yanaşsınlar.

c) Semestr ərzində tələbələrin dərslərə davamiyyətinə, mühazirə mətnlərinin yoxlanılmasına, seminar və laboratoriya dərslərində onların bilik səviyyəsinin fənn müəllimləri tərəfindən düzgün qiymətləndirilməsinə ciddi nəzarət etməklə obyektivliyi təmin etsinlər və bu barədə rektorluğa müvafiq təkliflər versinlər . Tədris olunan fənlər üzrə imtahan sualları və biletləri yalnız keçirilmiş mühazirələrin, laboratoriya, məşğələ və seminar dərslərinin mövzuları əsasında tərtib olunsun və imtahan sualları sessiya başlamazdan 1 ay əvvəl tələbələrə verilsin.

ç) Qrup üzrə balların minimal miqdarı kütləvi olaraq 25-dən (R-16 saylı 07.03.2011-ci il tarixli əmrə əsasən) az olarsa, belə hallar dekabrın 28-dək müvafiq tələbə qruplarında fakültə dekanı və kafedra müdirləri ilə birgə müzakirə edilsin və bu barədə rektorluğa məlumat verilsin.

d) İmtahan cədvəlləri üzrə kafedralarda müvafiq qeydiyyat aparmaqla imtahanqabağı məsləhət saatlarının keçirilməsini təmin etsinlər.

e) Semestr ərzində ayrı-ayrı fənlər üzrə 25-dən az bal toplamış tələbələr həmin fəndən imtahana buraxılmasınlar və bu barədə rektorluğa məlumat verilsin. Müvafiq strukturlar onların həmin fənlərdən 25-dən az bal toplama səbəblərini araşdırsınlar və əgər zərurət yaranarsa həmin tələbələrlə sessiyadan sonra müəyyən edilmiş müddət ərzində əlavə məşğul olmaq üçün kafedralarda müvafiq şərait yaradılmasını təmin etsinlər. Bu barədə verilmiş 13 fevral 2004-cü il tarixli 10 saylı sərəncama riayət edilsin.

ə) Ayrı-ayrı fənlər üzrə imtahandan 25-dən az bal toplamış tələbələrin sayı qrupda 10-dan çox olarsa, həmin tələbələr və müəllimlər haqqında qərargaha məlumat verilsin.

f) İmtahanın gedişində tələbələrin telefon və digər texniki vasitələrdən istifadəsi qəti qadağandır. İmtahan zamanı konspektdən, kitabdan və digər vasitələrdən istifadə hallarına yol verən tələbələrə qarşı imtahan zamanı köçürmə hallarının aradan qaldırılması barədə verilmiş 15 sentyabr 2011-ci il tarixli 08 saylı sərəncama əsasən müvafiq tədbirlər görülsün. İmtahan zamanı yardımcı vəsaitlərdən (proqram, lüğət, xəritə, cədvəl və s.) yalnız müəllim-koordinatorların iştirakı ilə istifadə oluna bilər.

g) Ödənişli təhsil alan tələbələrin təhsil haqqını vaxtında ödəmələrinə ciddi nəzarət etsinlər. Təhsil haqqını vaxtında ödəyə bilməyən tələbələr sessiya müddətində sonuncu imtahana buraxılmasınlar.

13.İmtahanlarda tələbələrin biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilməsinin qarşısını almaq üçün profilaktik tədbirlər görülsün. Hər bir neqativ hal üçün fakültə dekanlarının və kafedra müdirlərinin birbaşa məsuliyyət daşıdıqları onların nəzərinə çatdırılsın, belə hallar baş verdikdə ciddi tədbirlər görsünlər və bu barədə rektorluğa müvafiq təkliflər versinlər.

14. İmtahanların gedişinə nəzarət edilsin, onların nəticələri kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə edilsin.

15. Qış sessiyasının nəticəsinə görə üzürlü səbəbdən akademik borcu olan tələbələrə həmin kəsirləri ləğv etmək üçün 2012-ci il fevral ayının 25-dən martın 18-dək vaxt verilsin.

16. Tədris hissəsinin rəisi dos.İ.H.İbadova və Tədris–elektron mərkəzinin müdiri prof.M.M.Qurbanovaya tapşırılsın:

a) İmtahanların mütəşəkkil keçirilməsi, onların gedişinə nəzarətin artırılması məqsədilə fakültələrdə eyni fənlər üzrə qrupların birləşdirilməsini və imtahan cədvəllərinin səmərəli tərtibinin koordinasiyasını təmin etsinlər. Bu məqsədlə imtahan cədvəllərinin tərtibi zamanı auditoriya fondu və koordinatorların sayı nəzərə alınsın.

b) İmtahanlarda 3 gün və daha artıq iştirak etməyən müəllim- koordinatorlardan izahat alınsın və müvafiq inzibati tədbir görülsün.

c) İmtahan keçirilən günlərdə saat $9^{30}$-da böyük akt zalında müəllim-koordinatorların iştirakını təmin etsinlər. Koordinatorlar öz imtahan cədvəlləri haqqında əvvəlcədən yazılı məlumat versinlər.

ç) İmtahanların keçirilməsini lazımi blanklarla təchiz etsinlər.

17.Sessiyanın gedişinə operativ nəzarət etmək məqsədi ilə prof. E.M.Qurbanovun sədrliyi ilə qərargah yaradılsın və o, qərargahın tərkibi haqqında təklif versin. Prof.E.M.Qurbanova tapşırılsın ki, hər korpusda qutuların asılmasına nəzarət etsin, hər gün buradakı şikayətlərin araşdırılmasını təmin etsin və bu barədə tədbir görülməsi məqsədilə müvafiq təkliflər versin.

18. Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektora tapşırılsın ki, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların mövcud qaydada araşdırılması və həll edilməsi məqsədi ilə apellyasiya komissiyasının yaradılması haqqında müvafiq sərəncam versin. Apellyasiya

komissiyasında daxil olan ərizələrə fevral ayının 1 -dək baxılsın.

19.Qış imtahan sessiyasının gedişinə operativ nəzarət etmək məqsdəi ilə rektorluğun aşağıda adları qeyd olunan nümayəndələri müvaifq fakültələrə təhkim edilsinlər:

***I. Hüquq, beynəlxalq münasibətlər və iqtisadiyyat və filologiya fakültələri üzrə:***

prof.İ.N.Əliyeva — Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor

***II.Fizika, kimya, biologiya, coğrafiya, geologiya fakültələri üzrə:***

dos.Məmmədova Şəlalə Rafiq qızı — Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor

***III. Sosial elmlər və psixologiya, şərqşünaslıq, jurnalistika və kitabxanaçılıq-informasiya fakültələri üzrə:***

prof.Hacıyev Sani Tofiq oğlu — Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor

***IV. Mexanika- riyaziyyat, tətbiqi riyaziyyat və kibernetika və tarix fakültələri üzrə:***

prof.A.H.Kazımzadə — Elm və innovasiyalar üzrə prorektor

***20. TƏDRİS HİSSƏSİNİN RƏİSİNƏ VƏ TƏDRİS ELEKTRON MƏRKƏZİNİN MÜDİRİNƏ TAPŞIRILSIN:***

a) İmtahan sessiyasının mövcud əsasnaməyə uyğun keçirilməsinə, sessiyanın gedişini və nəticələrini əks etdirən bütün statistik forma və hesabatların vaxtında tərtib edilməsinə ciddi nəzarət etsin.

***21.ELMİ KİTABXANANIN DİREKTORUNA TAPŞIRILSIN:***

Sessiya müddətində elmi kitabxananın saat $10^{00}$-dan $20^{00}$-dək fəaliyyət göstərməsini təmin etsin və fakültə dekanları ilə birlikdə tələbələrin dərsliklər və dərs vəsaitləri ilə təmin olunmasına lazımı şərait yaratsın.

***22. SOSİAL MƏSƏLƏLƏR, TƏLƏBƏLƏRLƏ İŞ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏDAR VƏ İQTİSADİYYAT VƏ TƏSƏRRÜFAT İŞLƏRİ ÜZRƏ PROREKTORLARA TAPŞIRILSIN:***

a) İmtahan üçün ayrılmış otaqların təmirini və texniki təchizatını təmin etsin.

b) Tələbə bileti və ya vəsiqəsi olmayan şəxslərin giriş qapısından buraxılmamasına ciddi nəzarət təşkil edilsin.

c) Universitetdaxili nizam-intizam qaydalarının yerinə yetirilməsi və fakültələr üzrə növbətçilik təmin edilsin.

***23.«BAKI UNİVERSİTETİ» QƏZETİNİN REDAKTORUNA TAPŞIRILSIN:***

Sessiyaya hazırlıq və onun gedişi müntəzəm surətdə qəzetin səhifələrində işıqlandırılsın.

***24.UNİVERSİTET VƏ FAKÜLTƏ TƏLƏBƏ HƏMKARLAR TƏŞKİLATLARININ VƏ TƏLƏBƏ CƏNGLƏR TƏŞKİLATININ SƏDRLƏRİNƏ TAPŞIRILSIN:***

Sessiya müddətində imtahanların gedişində yaxından iştirak etsinlər və müntəzəm olaraq rektorluğa və fakültə dekanlıqlarına müvafiq məlumat versinlər.

25. Bu əmr fakültə elmi şuralarında, dekanlıqların və kafedraların iclaslarında professor-müəllim heyətinin (imza edilməklə) nəzərinə çatdırılsın və fakültənin elanlar lövhəsindən asılsın.

26.Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***ƏSAS:*** Tədris qrafiki və mövcud Əsasnamə, əmrlər və sərəncamlar.

***R E K T O R*** ***akademik A.M.MƏHƏRRƏMOV***